

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 7 (21.918)

13 yanvar 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Vətənə və xalqa xidmət nümunəsi

***Klassik alman filosofu Hegel tarixi şəxsiyyətlər haqqında deyirdi:*** *“Onlar məhz ona görə böyük simalar sayılırlar ki, böyük, ədalətli və zəruri işlər görmüşlər”.* ***Naxçıvan Muxtar Respublikasında böyük, ədalətli və zəruri tədbirləri əhalinin rifah halının yaxşılaşdırılmasına yönəldən Ali Məclisin Sədri cənab Vasif Talıbov 1960-cı il yanvarın 14-də sadə bir zəhmətkeş ailəsində dünyaya göz açmışdır. Heydər Əliyev məktəbində mükəmməl dövlətçilik yolu keçən muxtar respublika rəhbəri Naxçıvanda ümummilli liderin siyasi kursuna münasibətdə sözlə əməlin, dərin sədaqətlə konkret işin vəhdətini yaratmışdır.***

Yüksək prinsipiallıq, yorulmaz fəaliyyət, əqidə bütövlüyü və vətənpərvərlik kimi yüksək keyfiyyətlərə malik olan dövlət xadimləri həmişə nümunəvi addımları ilə ictimaiyyətin rəğbətini qazanırlar. Əsaslı şəkildə yenidən qurularaq alınmaz qalaya çevrilmiş Naxçıvan Muxtar Respublikası da ***“Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm”***, – deyən QURUCU RƏHBƏRİN əsəridir. Özünün hərtərəfli inkişaf dövrünü yaşayan Naxçıvanın beşminillik tarixində ilk dəfədir ki, onun hətta ən ucqar dağ kəndləri də müasir şəhər görkəmi alır, gözəl yaşayış məskəninə çevrilir.

Bir məqam xüsusi vurğulanmalıdır. 25 ildən artıq blokada şəraitində yaşayan muxtar respublikada yüksək iqtisadi fəallığa nail olunmasını, davamlı quruculuq işlərini, sosial problemlərin səmərəli həllini və ən əsası, əhalinin güzəranının yaxşılaşdırılmasını yalnız sadə formada tərəqqi və inkişaf yolu adlandırmaq olmaz. Bu yol Vətən naminə çəkilən gərgin əmək və misilsiz əzmkarlığın təcəssümüdür.

1996-cı ildən başlayaraq həyata keçirilən məqsədyönlü fəaliyyət nəticəsində inkişaf və tərəqqi üçün mühüm amil olan ictimai-siyasi sabitlik təmin edildi. Bütün fəaliyyət sahələrində yeniləşməyə yol açan səmərəli iqtisadi siyasət kursu götürüldü. Şəhər və rayonlarımızda canlanma yarandı. İş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırıldı. Minlərlə yeni iş yerləri açıldı. Şübhəsiz ki, həyata keçirilən tədbirlər insan faktoruna yönəldilmişdir. O da öz nəticəsini göstərdi. Muxtar respublika əhalisinin yaşayışında və həyat tərzində əsaslı dəyişikliklər baş verdi.

Ulu öndərimiz Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirərkən təhsil quruculuğunu həmişə ön planda saxlayırdı. Elm və təhsili davamlı iqtisadi inkişafın əsası hesab edən dahi şəxsiyyət deyirdi: ***“Hər bir dövlət əgər istəyirsə ki, öz inkişafını təmin etsin, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir”.*** Muxtar respublikada həyata keçirilən islahatların mərkəzində də təhsil infrastrukturunun müasirləşdirilməsi dayanır. Elm və təhsil quruculuğu inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilib. Ötən dövrdə müasir informasiya texnologiyaları ilə təmin olunmuş 200-dən artıq məktəb binası istifadəyə verilib, orta ixtisas və ali təhsil müəssisələri üçün yeni tədris korpusları tikilib, peşə məktəbləri yaradılıb. Bu gün Naxçıvan şəhərində də, ucqar dağ kəndlərində də şagirdlər kompüterlərdən, elektron lövhələrdən, müasir laboratoriyalardan, fondunda on minlərlə ədəbiyyat olan kitabxanalardan və internetdən istifadə edirlər. Bu, bütövlükdə ölkə Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi, xalqın və dövlətin gələcək müqəddəratına hesablanmış ***“İqtisadi resursların insan kapitalına çevrilməsi”*** prinsipinin əməli iş müstəvisinə çəkilməsinin əyani ifadəsidir.

Blokada vəziyyətində yaşayan Naxçıvanda əsas məsələlərdən biri də ərzaq və enerji təhlükəsizliyinin yerli imkanlar hesabına təmin olunmasıdır. Hər iki amil həyata keçirilən



islahatların prioritet istiqamətini təşkil edir. Əgər 1996-cı ildə muxtar respublikada bir su elektrik stansiyası vardısa, hazırda elektrik stansiyalarının sayı 8-ə çatdırılıb, yaşayış məntəqələri tamamilə qazlaşdırılıb. Bu gün Naxçıvan alternativ enerji mənbələrindən istifadə sahəsində nümunə göstərilir. İstehsal olunan elektrik enerjisi tələbatı üstələyir. Müxtəlif sahələr üzrə qəbul edilmiş dövlət proqramlarının icrası muxtar respublikamızda yerli istehsalın həcminin artmasına, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatına geniş imkanlar yaradıb. Əvvəllər zəruri ərzaq və sənaye məhsullarına olan tələbatını tamamilə idxal hesabına ödəyən muxtar respublikada bu gün 344 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir, ixrac potensialı getdikcə artır.

Aqillər nahaq yerə deməyiblər ki, keçmişinə bax, bu gününə qiymət ver. Bir vaxtlar muxtar respublika əhalisi bir tərəfdən erməni işğalı, digər tərəfdən, sözün həqiqi mənasında, aclıq təhlükəsi ilə üz-üzə qalmışdı. Şaxtalı qış günlərində yaşayış məntəqələrində yaranan çörək növbələrində çəkilən əziyyətlər hələ də yaddaşlardan silinməyib. Gecələr evində çıraq lampası yandıran, həyətindəki meyvə ağaclarını kəsib isinən, yarıac-yarıtox yatan naxçıvanlılar ərzaqla da, enerji ilə də özlərini təmin edəcəklərinə, bu günü yox, gələcəklərini düşünəcəklərinə, ağac əkib yaşıllıqlar salacaqlarına, bir sözlə, evində, yurdunda rahat yaşayacaqlarına inana bilmirdilər. Bu gün isə Naxçıvanda ərazinin 14 faizindən çoxu yaşıllıqdır. Ən ucqar sərhəd kəndindən tutmuş şəhər, rayon mərkəzlərinə qədər hər yerdə bolluqdur. Təbii ki, bütün bunlar dövlət-xalq birliyinin bəhrəsi, düzgün rəhbərliyin nəticəsidir.

Tarixi çox qədimlərə söykənən Naxçıvan dünyanın ilkin yaşayış məntəqələrindəndir. Bu diyarda tarixin minlərlə yadigarı vardır. Naxçıvanqala, Oğlanqala, Qızqala, Əlincəqala, Möminə xatın, Yusif Küseyir oğlu, Qarabağlar, Gülüstan türbələri Naxçıvanın qədimliyindən, mədəniyyətindən, böyük dövlətçilik tarixindən xəbər verir. Ancaq vaxt var idi ki, tariximizi, milli və mənəvi dəyərlərimizi əks etdirən abidələrimiz də dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Ali Məclisin Sədri tarixi yaddaşımızın yox olmasının da qarşısını aldı, 1200-dən artıq tarixi abidə pasportlaşdırılaraq mühafizəyə götürüldü, dünya və respublika əhəmiyyətli 70-ə yaxın abidə yenidən bərpa olunaraq Azərbaycan xalqına qaytarıldı. Məhz buna görə də bu gün hər bir vətənpərvər insan Naxçıvanda tarixi-mədəni irsimizə göstərilən qayğını görəndə əminliklə deyir: ***Tarixi yaşadanları tarix də yaşadacaqdır!***

Gələcəyimizi qorumağın və yeni nəsillərə çatdırmağın ən mühüm şərti milli dövlətçilik ənənələrinin qorunması və yaşadılmasıdır. Bu isə təkcə ərazinin və ya maddi sərvətlərin yox, həm də milli və mənəvi dəyərlərin qorunmasına da xidmət edir. Bu gün bütün bunlar Naxçıvanda ən yüksək səviyyədə təmin olunub. Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilib. Naxçıvan dünyada Nuhun diyarı, sabitlik, təmizlik, inkişaf məkanı kimi tanınır. Naxçıvan bu gün turizm mərkəzidir. Hər il yüz minlərlə turist bu qədim diyara səyahət edərək onun hüsnünə heyran qalır. Naxçıvan bu gün Şərqlə Qərbin, tarixlə müasirliyin vəhdətindən gələcəyə işıq, nur saçan nurlu diyardır! Naxçıvan bu gün İslam Mədəniyyətinin Paytaxtıdır. Sabah isə Avropa mədəniyyətinin paytaxtı statusunu qazanmaq üçün bütün əsaslara malikdir.

Adətən, bir ölkə və ya məkan sürətli inkişaf yoluna qədəm qoyduqda, əsasən, onun mərkəzi şəhərləri, daha çox isə paytaxtı diqqətdə saxlanılaraq abadlaşdırılır. Muxtar respublikamızın isə paytaxtı ilə yanaşı, ən ucqar dağ kəndləri də abadlaşdırılıb. Kənd yerlərində yaraşıqlı binalar tikilib, nəqliyyat-kommunikasiya sistemi bərpa edilib, elektrik enerjisi, rabitə, qaz və su təminatı tam həyata keçirilib. İndi Naxçıvanda inkişaf, tərəqqi kənddən şəhərə doğru gedir. Muxtar respublikanın bölgələrində sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi sosial-iqtisadi və mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaradıb. Bütün bunlar haqlı olaraq geniş ictimai rəydə iqtisadi inkişafın “Naxçıvan modeli” adlandırılır.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks tədbirlər, sənaye və aqrar sahənin inkişafında müsbət nəticələrin əldə olunması, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, investisiya imkanlarının artması sürətli inkişaf tempinin qorunub-saxlanmasına, əhalinin rifahının yaxşılaşmasına və sosial problemlərin həllinə səbəb olmuşdur. Əldə olunan inkişaf göstəriciləri ölkəmizin iqtisadi regionları ilə müqayisədə Naxçıvan Muxtar Respublikasının ön mövqedə olmasını şərtləndirir. Bu, aparılan təhlillər, hazırlanan reytinq siyahılarında da öz əksini tapır. Sədri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev olan “Caspian European Club” bu il Azərbaycan üzrə iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən iqtisadi regionların illik investisiya reytinqini hazırlayıb: Reytinq siyahısının lideri Naxçıvan Muxtar Respublikasıdır!

Bu, bir daha göstərir ki, seçilən yolun düzgünlüyü, sözlə işin, əməllə əqidənin vəhdəti böyük uğurların əsasını təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Naxçıvanın inkişafını yüksək qiymətləndirərək deyib: ***“Siz, Ali Məclisin Sədri Vasif Talıbovun fəaliyyəti nəticəsində bütün bu uğurlara nail olmusunuz. Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu – abadlıq-quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Bu, Naxçıvanda var və məni çox sevindirir”.***

Naxçıvan Muxtar Respublikası etibarlı müdafiə olunur. Burada xalq-ordu birliyi mövcuddur. Əsgərlərin nümunəvi xidmət keçməsi üçün hər cür şərait yaradılıb, nizam-intizam ən yüksək səviyyəyə çatdırılıb. Əvvəllər, necə deyərlər, qorxusuz-hürküsüz Naxçıvanın sərhəd kəndlərini aramsız atəşə tutan düşmən bu gün susmağa məcburdur. Çünki onun qarşısında nümunəvi ordu, məğrur Azərbaycan əsgəri dayanıb! Müasir hərbi hissələr, güclü maddi-texniki təminat, hərbi qulluqçuların döyüş qabiliyyətinin mütəmadi artırılması ordu quruculuğu sahəsində görülən ən mühüm tədbirlərdir.

Artıq bir reallıqdır ki, muxtar respublikada atılan hər bir addım, qəbul edilən hər bir qərar ictimaiyyət tərəfindən mütərəqqi təşəbbüs kimi qiymətləndirilir; cəmiyyəti düşündürən hər bir məsələdə Naxçıvan təcrübəsi nümunə kimi götürülür.

Gələcəklə bağlı istənilən ideya o vaxt həyati və cəlbedici olur ki, onun reallaşdırılması mexanizmləri barədə aydın təsəvvürlər olsun. Bu gün muxtar respublikamızın hər bir sakinində inkişafımızın gələcək perspektivləri ilə bağlı aydın təsəvvür vardır. Yəni bu, o deməkdir ki, biz bundan sonra da inkişaf yolu ilə gedəcək, böyük uğurlara imza atacağıq.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”.***

*Bu gün Naxçıvan Muxtar Respublikası xalqımızın ümummilli lideri Heydər Əliyevin arzularının reallaşdığı möhtəşəm məkandır. Ulu öndərin göstərdiyi yolla qətiyyətlə irəliləyən, onun istəklərini, arzularını, gələcək haqda planlarını addım-addım yerinə yetirən Naxçıvanda əldə olunan bütün nailiyyətlər Vətənə və xalqa xidmət nümunəsidir.*

**“Şərq qapısı”**

# 2017-ci ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Dünən Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2017-ci ildə görülmüş işlərə və 2018-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.***

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının Prokuroru vəzifəsini icra edən II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğu 2017-ci ildə digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin, dövlət müstəqilliyimizin, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin edilməsində fəallıq göstərib. Ötən il peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi qeydə alınmayıb, yetkinlik yaşına çatmayanlar və narkomanlar tərəfindən cinayət hadisələri törədilməyib. Bu kateqoriyadan olan şəxslər tərəfindən bundan sonra da cinayət hadisələri törədilməsinin qarşısının alınması üçün bütün qabaqlayıcı-profilaktik tədbirlərin keçirilməsinə ciddi nəzarət edilib.

Qeyd olunub ki, prokurorluq orqanlarına işə qəbulun şəffaf şəraitdə müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına yeniləşdirilməsi üçün ciddi zəmin yaradıb. Gənc hüquqşünasların prokurorluğa müsabiqə yolu ilə işə qəbulu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə həyata keçirdiyi dövlət gənclər siyasətinin məntiqi nəticəsidir. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq olunmuş və 2007-ci il 23 noyabr tarixli Fərmanı ilə dəyişikliklər edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnaməyə və "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi Qaydaları"na müvafiq olaraq 10 noyabr 2017-ci il tarixdə 9 ştat vahidi üzrə işə qəbulla əlaqədar müsabiqə elan edilib və hazırda sənəd qəbulu davam edir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət məqsədilə 2017-ci ildə prokurorluq orqanlarının əməkdaşları bu işə cəlb edilib və hazırda belə tədbirlər digər müvafiq orqanlarla əlaqəli şəkildə mütəmadi olaraq davam etdirilir. Həmçinin bu sahədə hüquqi maarifləndirmə işi aparılmaqla, kütləvi informasiya vasitələrinin gücündən də səmərəli istifadə olunur.

Vurğulanıb ki, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin olunması bundan sonra da prokurorluq orqanları tərəfindən davam etdiriləcək.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin kollegiya iclasını giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov açıb.*

Ali Məhkəmənin sədri qeyd edib ki, qanunvericilik bazasının mütəmadi olaraq təkmilləşdirilməsi, məhkəmə orqanlarının yeni informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması məhkəmə sisteminin daha da müasirləşdirilməsinə səbəb olmaqla yanaşı, ədalət mühakiməsinin tam, obyektiv və qərəzsiz aparılmasına, məhkəmə nöqsanlarının və işlərə baxılmasında gecikdirilmə hallarının aradan qaldırılmasına, məhkəmə qərarlarının vaxtında icra olunmasına, məhkəmə müdafiəsi hüququnun daha möhkəm şəkildə təmin olunmasına şərait yaradıb.

Ali Məhkəmənin sədri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan 2011-ci il 15 iyul tarixli "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Fərmandan irəli gələn vəzifələrin icrası haqqında, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində görülən işlərlə bağlı məlumat verərək, məhkəmə qərarlarının axtarış sistemli vahid elektron bazasının təkmilləşdirilməsindən, Ali Məhkəmənin nəşri olan "Bülleten"in növbəti saylarının işıq üzü görməsindən və məhkəmənin rəsmi internet səhifəsində yayımlanmasından, məhkəmənin elektron kitabxana bazasının qanunvericilik aktları və yeni hüquq ədəbiyyatı ilə zənginləşdirilməsindən bəhs edib, həyata keçirilən tədbirlərin insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldiyini bildirib.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış məhkəmələrinin, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin 2017-ci ildə gördükləri işlərə dair məlumatları dinlənilib.

İclasa Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov yekun vuraraq bildirib ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi öz fəaliyyətini bundan sonra da qanunvericiliyin tələbləri səviyyəsində təşkil edərək ədalət mühakiməsini obyektiv, tam və qərəzsiz şəkildə həyata keçirəcək, vətəndaşların hüquqi maarifləndirilməsi işinin daha da gücləndirilməsi və əhalinin hüquq xidmətlərinə olan tələbatının ödənilməsi üçün səylərini davam etdirəcəkdir.

---

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində keçirilən kollegiya iclasında çıxış edən nazir Famil Seyidov bildirib ki, 2017-ci ildə ümumi daxili məhsul istehsalının həcmi bir il öncəki dövrlə müqayisədə artaraq 2 milyard 701 milyon 663 min manat, onun hər bir nəfərə düşən həcmi isə 3,6 faiz artaraq 5 min 990 manat təşkil edib. Ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 87 faizi ötüb.

Qeyd olunub ki, yerli istehsal sahələrinin inkişafı nəticəsində muxtar respublikada 368 növdə məhsul istehsalı, 344 növdə məhsula olan tələbatın yerli imkanlar hesabına ödənilməsi təmin edilib. Ötən il ümumi daxili məhsulda sənaye məhsulunun payı 28 faiz, istehsal edilən sənaye məhsulunun tərkibində isə emal sənayesinin payı 57 faizi təşkil edib.

Diqqətə çatdırılıb ki, ötən il aqrar sektor üçün də uğurlu olub. 714 kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələri yaradılıb, ailə təsərrüfatlarının inkişafı üçün 13 təsərrüfata 243 min manat məbləğində dövlət maliyyə dəstəyi göstərilib. 2017-ci ildə ilk dəfə olaraq muxtar respublikada "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın uğurlu icrası davam etdirilib, 2017-ci ildə kartof istehsalı 48 min 982 tona, tərəvəz istehsalı 83 min 583 tona, meyvə və giləmeyvə istehsalı 68 min 202 tona çatdırılıb.

Vurğulanıb ki, kənd təsərrüfatı sahəsində muxtar respublikada verilən güzəştli kreditlər hesabına yaradılmış 254 heyvandarlıq, 84 quşçuluq, 15 balıqçılıq, 104 arıçılıq, 65 bağçılıq, 8 üzümçülük təsərrüfatı, ümumi tutumu 14 min ton olan 31 soyuducu anbar, ümumi sahəsi 128 min 162 kvadratmetr olan 21 istixana kompleksi, 19 taxıl emalı müəssisəsi tələbatın dolğun ödənilməsində mühüm rol oynayır.



2017-ci ildə Sahibkarlığa Kömək Fondu tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə sənaye, kənd təsərrüfatı və xidmət sahələri olmaqla, ümumilikdə, 25 layihənin maliyyələşməsinə 1 milyon 978 min manat kredit verilib.

Həyata keçirilən tədbirlərin və görülən bütün işlərin muxtar respublikanın investisiya cazibədarlığını artırdığını deyən nazir vurğulayıb ki, ötən ilin yekunlarına əsasən ölkəmizin iqtisadi regionları üzrə illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək bal toplayaraq birinci yerə çıxıb. "Caspian European Club" kimi nüfuzlu təşkilatın 18 parametr və 6 qrup üzrə hazırladığı təhlillər Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın artan dinamika ilə getdiyini bir daha təsdiq edir.

Sonda işdə yol verilmiş nöqsan və çatışmazlıqlar müzakirə olunub.

---

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində keçirilən kollegiya iclasında rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov açaq məruzə edib.

Bildirilib ki, ötən il ərzində plan tapşırıqları 102,7 faiz əməl olunub, tarif gəliri əlavə dəyər vergisiz 8 milyon 425 min 958 manat təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 150 min 21 manat çoxdur.

Qeyd olunub ki, "Evədək optika" layihəsi çərçivəsində 72 fərdi mənzilə fiber-optik kabel xətti çəkilib və Gigabit Passiv Optik Şəbəkə avadanlığı qurulub. Hesabat ili ərzində 2562 ədəd yeni telefon nömrəsi istismara verilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən yeni qurulan avadanlıqlar sayəsində genişzolaqlı internet istifadəçilərinin sayı il ərzində 5285 nəfər artıb.

Rövşən Məmmədov bildirib ki, "Naxçıvanpoçt"un kommunal ödəniş sisteminin proqram təminatı daha müasir Oracle məlumat bazası əsasında qurularaq serverdə yerləşdirilib. Ümumilikdə, "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti öz müştərilərinə 27 milyon 436 min 390 manat dəyərində xidmət göstərib.

Vurğulanıb ki, nazirliyin birgə müəssisəsi olan "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətinin ilk ilində ciddi uğurlara imza atıb. Yüksəkkeyfiyyətli xidmət sayəsində 4-cü nəsil "Naxtel" operatorunun istifadəçi sayı il ərzində 20700 nəfər artaraq 30 minə yaxınlaşıb. Bank ödəniş və qəbul terminallarında "Naxtel"in sim kartlarından kanal yaradıcı vasitə kimi istifadə olunması və hesabat sisteminin təkmilləşdirilməsi üçün müvafiq işlər icra edilib, 120 POS-terminal və 10 bankomatda "Naxtel" sim kartlarından istifadə olunması təmin edilib. Hazırda Gürcüstan Respublikasında "Naxtel"in rominq xidməti işə salınıb, digər 10 ölkə üzrə testsınaq işləri həyata keçirilir.



Nazir qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə bağlı işlər aparılıb. Bundan əlavə, 2017-ci ilin iyun ayında nazirliklə Çin Xalq Respublikasının "Huawei" şirkətinin birgə layihəsi olan "Gələcəyin İKT sahəsindəki toxumları" adlı ikinci proqram çərçivəsində 12 tələbə "Huawei" şirkətinin Şenjen şəhərindəki yay təlim mərkəzində istehsalat təcrübəsinə göndərilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

---



"Naxçıvanqaz" İstehsalat Birliyində keçirilən iclası birliyin direktoru Ramin İsmayılov açaraq məruzə edib. Bildirib ki, muxtar respublika üzrə təbii qaz istehlakçılarının 1 yanvar 2018-ci il tarixə ümumi sayı 88 min 80 olub. Bunlardan 85 min 791-i əhali, 2 min 289-u isə qeyri-əhali abonentlərdir. Ötən il ərzində daxil olan müraciətlərə əsasən 893 mənzil, həmçinin müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb. Onlardan 812-si əhali, 81-i qeyri-əhali abonentlərdir.

Qeyd edilib ki, muxtar respublikada istehlakçıların təbii qazla fasiləsiz təmin edilməsi məqsədilə qaz təsərrüfatı infrastrukturunun təkmilləşdirilməsi məsələləri də diqqət mərkəzindədir. Bəhs olunan dövrdə qaz təsərrüfatında korroziyaya uğramış yeraltı boruların yerüstü keçidlərlə dəyişdirilməsi, evlərin, sosial obyektlərin qazlaşdırılması, yol-tikinti, yenidənqurma və abadlaşdırma işlərinin aparılması ilə əlaqədar ümumi uzunluğu 167 min 897 paqonometr olan müxtəlif diametrli borulardan istifadə edilib.

Vurğulanıb ki, Naxçıvan şəhərində smartkarttipli qaz sayğaclarının əvəz olunması istiqamətində ötən il də işlər uğurla aparılıb. Belə ki, 2923 ədəd smartkarttipli qaz sayğacı və mühafizə qutusu quraşdırılıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

---

Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən yığıncağı giriş sözü ilə açan icra başçısı Vüqar Səfərov bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi siyasət nəticəsində Naxçıvan Muxtar Respublikası son 20 ildən artıq bir dövrdə sürətli inkişaf yolu keçib.

Cari ilin ən yaddaqalan hadisəsi ölkə Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya səfəri zamanı Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbin, Fövqəladə Hallar Nazirliyinin zabit və gizir ailələri üçün inşa edilmiş yaşayış binasının açılış mərasimində iştirak etməsi olub.

Vurğulanıb ki, əvvəlki dövrlərdə olduğu kimi, 2017-ci ildə də Naxçıvan şəhərinin abadlıq-bərpa, tikinti quraşdırma işləri ön plana çəkilib, əhalinin mənzillərə olan tələbatının ödənilməsi, həyat səviyyəsinin daha da yaxşılaşdırılması diqqətdə saxlanılıb. Ötən ildə Əlahiddə Ümumqoşun Ordusunun təlim-tədris mərkəzinin, Əlahiddə Sərhəd Diviziyasında infrastruktur obyektlərinin, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Xüsusi Təyinatlılar Şöbəsinin inzibati binasının və təlim mərkəzinin, Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin inzibati binasının, Tumbul və Qaraxanbəyli kənd mərkəzlərinin, 2 yaşayış binasının, çirkab sutəmizləyici qurğunun, yerüstü piyada keçidinin, Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsi üçün korpusun, Tumbul kəndində 376 şagird yerlik 13 nömrəli tam orta məktəbin, Qaraxanbəyli və Tumbul kəndlərində feldşer-mama məntəqələrinin, 2 nömrəli Təqaüdçülər Klubunun tikintisi, 6 yaşayış binasının, Qaraxanbəyli kəndində avtomobil yolunun, Naxçıvan şəhərinin Əziz Əliyev küçəsinin, Beynəlxalq Hava Limanında karqo terminalının yenidən qurulması, bir yaşayış binasının əsaslı təmiri, Qaraçuq kəndində qapalı drenaj xəttinin çəkilişi, Əziz Əliyev küçəsində istirahət parkının salınması, "Xatun" bədii-gimnastika klubunun Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində, Naxçıvan Uşaq Bərpa Mərkəzində filiallarının yaradılması başa çatdırılıb.



Hazırda şəhərin müxtəlif ünvanlarında tikinti-quruculuq tədbirləri davam etdirilir.

Bildirilib ki, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, əlverişli biznes mühitinin yaradılması daim diqqətdə saxlanılan sahələrdən biri olub. 2017-ci ildə 707 milyon 411 min 900 manatlıq sənaye məhsulu istehsal edilib.

Naxçıvan şəhərində qeyri-məşğul əhalinin məşğulluğuna nail olunması üçün 2017-ci ildə bir sıra işlər görülüb. Belə ki, əvvəlki ildə işsiz kimi qeydə alınmış 767 nəfərdən 613 nəfəri işlə təmin edilib. 47 nəfər ictimai işə cəlb edilib, 7 nəfər kvota (norma) yerlərinə göndərilib, 141 nəfər peşə hazırlığı kursları keçib ki, bunlardan da 70 nəfəri işlə təmin olunub.

Məruzə ətrafında müzakirələr aparılıb.

**Xəbərlər şöbəsi**

Oxucu məktubu

## "Oxunması zəruri olan kitablar"dan biri haqqında düşüncələr

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2017-ci il 28 avqust tarixdə "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam imzalayıb. Bir müəllim kimi bu sərəncam məni də çox sevindirdi və bu mühüm dövlət sənədinə görə Ali Məclis Sədrinə kollektivimiz adından dərin minnətdarlığımı bildirirəm. Həmin siyahıdakı "ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə yazdığı məktub" olduqca tərbiyəvi əhəmiyyət daşıyır və bir atanın övladına arzuladığı bütün keyfiyyətlər məhz bu məktubda öz yerini alıb.

"ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə yazdığı məktub" həcminə görə qısa olmasına baxmayaraq, çox mühüm kodeksləri özündə birləşdirən və düzgün seçilmiş bir kitabdır. Həmin məktub sanki Avraam Linkolnun deyil, bütün valideynlər adından müəllimlərə bir müraciətdir. Məktubdakı cümlələrin hər biri bu günün




müəlliminə sanki yol göstərir, onun üzərinə müəyyən mənəvi vəzifə qoyur. Bəs prezidenti sıravi bir müəllimə məktub yazmağa vadar edən nə idi? O, çox yaxşı bilirdi ki, uşaqların tərbiyəsinə ən çox təsir edən, onu düzgün istiqamətləndirə bilən məhz müəllimdir. Məktubda deyilir:

– Hörmətli müəllim. Oğlumu sizə əmanət edəcəyimə görə bu məktubu sizə yazmağı vacib bildim.

Deməli, şagird müəllimə verilmiş bir əmanətdir.

– Ona öyrədin ki, hamı dürüst və ədalətli deyil. Amma hər alçağa qarşı bir qəhrəman, şəxsi mənafeyini güdən siyasətçiyə qarşı isə özünü ölkəsinə fəda etmiş bir lider mütləq var.

Bu cümlənin dərin mənasında əsl vətənpərvərlik, ölkəsinə bağlılıq, fədakarlıq ruhu yatır. Linkoln müəllimdən oğlunu özünü ölkəsinə fəda etməyə hazır olan bir şəxsiyyət kimi yetişdirməyi xahiş edir. Çünki ona, yəni müəllimə inanır və bel bağlayır. Bu tezis bütün müəllimlərə sanki bir yol göstərir.

– Hər düşmənin əvəzinə bir dost mütləq var. Vaxtınızı alacaq, bilirəm, amma imkan olsa, ona öyrədin ki, qazanılan bir dollar, tapılan 5 dollardan daha dəyərlidir.

Bu cümlənin əsasında isə bizim mentalitetə uyğun dillə desək, halallıq, zəhmətlə qazanılan malın şirinliyi, ölməzliyi, bir sözlə, halalın haramdan üstünlüyü dayanır.

– Onu qısqanclıqdan uzağa yönəldin.

Linkoln istəyirdi ki, oğlu həyatda valideyninə, yoldaşlarına, ətrafındakı heç kimə qarşı qısqanc olmasın. Çünki qısqanclıq gələcəkdə digər fəsadların başlanğıcı ola bilər.

– Əgər bacara bilsəniz, ona kitabların möcüzəli bir şey olduğunu öyrədin. Ona səssizlikdə göydəki quşların, günəşdəki arıların, çəmənlikdəki güllərin daxili sehrinə enməyi öyrədin.

Linkoln istəyirdi ki, oğlu kitabları bir əşya kimi deyil, bir elm, bilik mənbəyi kimi sevsin. O bilirdi ki, oğlu yalnız kitab oxumaqla Vətənini sevə bilər. O bilirdi ki, oğlu məhz bu yolla yüksək bilik və mədəniyyət sahibi ola bilər. O bilirdi ki, bunu yalnız müəllim edə bilər.

Gələcəyimiz olan gənclik məhz biz müəllimlərə əmanət edilib. Düşünürəm ki, yeniyetmə və gənclər Siyahıda yer alan kitablardan bəhrələnərək öz dünyagörüşlərini, vətənpərvərlik duyğularını daha da artıracaq, intellekt səviyyələrini yüksəldəcəklər. Bu gün muxtar respublikanın təhsil və mədəniyyət müəssisələrində həmin kitablardan ibarət guşələr yaradılıb, onların müzakirəsi təşkil olunur. Bir sözlə, Ali Məclis Sədrinin imzaladığı müvafiq Sərəncam ölkəmizin gələcəyi olan gənc nəslin kitaba və mütaliə mədəniyyətinə marağının artırılmasına xidmət edir.

**Natiq MƏMMƏDOV**
*Babək rayonu, Cəhri kənd*
*1 nömrəli tam orta məktəbin müəllimi*

## İslam dünyasının mədəniyyət zənginliyinin rəmzi Naxçıvan

***İnsanları elm öyrənməyə təşviq edən və elmi, təhsili ibadət sayan yeganə din məhz İslam dinidir. Təsadüfi deyildir ki, dünyanın müsəlman əhalisinin sayı 1975-ci ildə cəmi 500 milyon nəfər idisə, heç yarım əsr keçmədən bu rəqəm bu gün 1,5 milyardı ötmüşdür. İnsanlığa hər sahədə çox önəmli nailiyyətlər qazandırmış İslam mədəniyyəti əsrlər sürən və bu gün də çox geniş bir coğrafiyanı əhatə edən böyük bir mədəniyyətdir.***

İslam mədəniyyətinin formalaşmağa başladığı ilk dövrlərdəki elm müsəlmanlara özünəməxsus dünyagörüşü qazandırmışdır. Sonrakı dövrlərdə müsəlmanlar əldə etdikləri elmi təcrübələrlə bu dünyagörüşü əsasında böyük bir mədəniyyət yaratmışlar. İslam mədəniyyətinin inkişafında Azərbaycan xalqının da xidmətləri böyükdür. Belə ki, qədim Azərbaycan mədəniyyəti İslam mədəniyyətinin formalaşması və yaşadılmasında əhəmiyyətli rol oynamışdır. Azərbaycan xalqının İslamın ali dəyərlərinə qəlbən bağlılığı tarixin hər bir çətin sınağında xalqımızı öz inancından yayındıra bilməmişdir. Zəngin tarixi-mədəni irsi və özünün artan nüfuzu ilə ölkəmiz müasir dövrdə İslam dünyasının layiqli bir üzvüdür.

Əhalisinin əksəriyyətinin müsəlman olduğu Azərbaycanda insanların özünəməxsus multikultural dəyərlərə sahib olması, azad dini etiqad seçimi, ziyarətgahlara və digər müqəddəs məkanlara son dərəcə həssas münasibət göstərməsi respublikamızda beynəlxalq nüfuz qazandıran başlıca amillərdəndir. Bu baxımdan 2009-cu ildə ölkəmizin paytaxtı Bakı və 2018-ci ildə Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi Azərbaycanın İslam dünyasında önəmli bir məkan olduğunu sübut edir.

Bu gün Naxçıvan İslam dünyasının mədəniyyət zənginliyinin rəmzi olan bir şəhəridir. Bunu şəhərimizin tarixi və mədəniyyət abidələri bir daha sübut edir. Digər tərəfdən gündən-günə müasirləşən doğma diyarımız öz tərəqqi və intibahı, qonaqpərvərliyi, bəşəri və milli əxlaqı, dini dəyərləri qoruyub yaşatması, əsrarəngiz təbiəti, turizm potensialı ilə daim diqqət mərkəzindədir. Məhz bu səbəblərə görə İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərinin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilmiş 6-cı konfransında qəbul edilmiş qərarla Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında 2016-cı il 2 iyun tarixdə Sərəncam imzalamışdır. Sərəncamda deyilir: *"Bakı şəhərində 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır".*

Sərəncama əsasən yaradılan Təşkilat Komitəsinin 25 noyabr 2016-cı ildə Naxçıvan şəhərində ilk iclası keçirilmişdir. İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri cənab Vasif Talıbov demişdir: ***"Azərbaycanın 5 min illik tarixə malik qədim şəhəri olan Naxçıvan İslam mədəniyyəti nümunələri ilə zəngindir və bəşər sivilizasiyasına dəyərli töhfələr vermişdir. Qeyd olunanlar, eləcə də 2009-cu ildə Bakı şəhərinin İslam mədəniyyətinin paytaxt elan olunması ilə bağlı qazanılan təcrübə 2018-ci ildə Naxçıvan şəhərində tədbirlərin yüksək səviyyədə keçiriləcəyinə əminlik yaradır".***

Təşkilat Komitəsinin ilk iclasında Tədbirlər Planı təsdiq olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan-2018" loqotipinin hazırlanması haqqında" 2017-ci il 23 yanvar tarixli Sərəncamına əsasən Mədəniyyət və Turizm Nazirliyi və Rəssamlar Birliyi tərəfindən loqotipin hazırlanması üçün yaradıcılıq müsabiqəsi elan edilmişdir. 40-a yaxın iştirakçı tərəfindən 70-dən çox loqotip nümunəsi təqdim olunmuş, bunlardan Naxçıvanın həm türk, həm də İslam mədəniyyətinin daşıyıcısı olduğunu qədim və müasir tarixi rəmzlərlə çatdıran loqotip qəbul edilmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyəti "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018" loqotipinin şəhərdəki monitorlarda və şəhərin müəyyən yerlərində yerləşdirilməsi, Mədəniyyət və Turizm Nazirliyi Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018" rəsmi internet səhifəsinin hazırlanması ilə bağlı bir sıra işlər görüb.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin sifarişi ilə "Azərmarka" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən hazırlanmış 100 min ədəd marka və 100 min ədəd zərf muxtar respublikaya gətirilmiş və tədavülə buraxılmışdır. Ölkədaxili və beynəlxalq poçt göndərişlərində istifadə olunması nəzərdə tutulan standart ölçülü poçt markasının, eləcə də poçt zərfinin üzərində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018" loqosunun rəsmi həkk olunmuşdur. Həmçinin "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018" loqosunun təsviri olan, üzərində Haçadağın, "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018" loqotipinin və Gülüstan türbəsinin əks olunduğu 100 ədəd hədiyyə bukleti hazırlanmışdır.

Bu istiqamətdə öz elmiliyi və tarixi ilə seçilən tədbirlərdən biri də ötən il "Naxçıvan türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" mövzusunda keçirilən beynəlxalq konfrans oldu. Ali Məclisin Sədri Naxçıvanın türk-islam mədəniyyəti abidələrinin öyrənilməsi ilə bağlı keçirilən bu konfransı Azərbaycan və İslam tarixşünaslığına mühüm töhfə kimi dəyərləndirmiş, qədim Naxçıvanın türk-islam mədəniyyəti və tarixindəki yerini belə səciyyələndirmişdir: ***"Naxçıvan ən qədim dövrdən başlayaraq türk mədəniyyətini günümüzə qədər gətirib çıxarmışdır. Neolit, Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin nadir inciləri, beş min il bundan əvvəl yaradılan ilkin şəhər mədəniyyəti, insan düşüncəsinin ilk yazılı ifadəsi olan Gəmiqaya abidələri, milli varlığımızın ifadəsinə çevrilən "Kitabi-Dədə Qorqud" dastanı Naxçıvanda İslam dini qəbul olunana qədərki mədəniyyətin nümunələridir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də deyirdi: "Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır".***

Bu mühüm tarixi əhəmiyyət kəsb edən konfrans tarix, coğrafiya, arxeologiya, etnoqrafiya, folklor, dilçilik, ədəbiyyat, turizm, mədəniyyət, memarlıq, incəsənət sahələri ilə bağlı yeni elmi tədqiqatların nəticələrinin müzakirəsi, gələcək elmi istiqamətlərin müəyyənləşdirilməsi ilə yadda qalmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 18 dekabr tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin, həmçinin 2017-ci il 28 dekabr tarixli Sərəncamı ilə agentliyin tabeliyində "Mənəvi Dəyərlər Fondu"nun yaradılması bu sahədə aparılan məqsədyönlü işlərə öz töhfələrini verəcəkdir.

Gündən-günə gözəlləşən, İslam mədəniyyətinin tarixində özünəməxsus yer tutan, müasir inkişafı ilə diqqəti cəlb edən Naxçıvan həm də qədim sivilizasiyanın beşiyidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: ***"Naxçıvanın Türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərimizdir, böyük sərvətimizdir".***

Bütün Şərq dünyasının, İslam aləminin dövlətçilik və fəlsəfi düşüncə mərkəzi kimi tanınan Naxçıvan şəhəri artıq İslam mədəniyyətinin paytaxtı statusunu təhvil alıb. Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı olması muxtar respublikamızın, ölkəmizin, ümumilikdə isə İslam dünyasının mədəni həyatında yaddaqalan bir hadisə kimi tarixdə öz yerini tutacaqdır.

**Jalə ALMƏMMƏDOVA**

## Uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin konserti maraqla qarşılanıb

***Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində olan uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018" devizi altında Babək Rayon Mədəniyyət Evində keçirilən konserti maraqla qarşılanıb.***

Əvvəlcə Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri Təranə Cəfərova çıxış edərək bildirib ki, konsert şöbənin iş planına əsasən keçirilir.

Qeyd edilib ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı statusunu daşıyır. Bu münasibətlə mədəniyyət və turizm şöbəsi də bir sıra tədbirlər keçirəcəkdir.

Vurğulanıb ki, konsertin təşkilində məqsəd musiqi məktəblərində Azərbaycan və dünya musiqisini təbliğ etməkdir.

Təranə Cəfərova çıxışında muxtar respublikamızda fəaliyyət göstərən uşaq musiqi məktəbləri barədə danışaraq qeyd edib ki, musiqimizin inkişafı istiqamətində görülən tədbirlər davamlı xarakter alıb. Son illər 23 uşaq musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilib. Bu gün muxtar respublikada 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir. Həmin məktəblərdə musiqi təhsilinin nümunəvi təşkili üçün hərtərəfli şərait yaradılıb. Naxçıvan şəhərində hazırda 6 uşaq musiqi məktəbi fəaliyyət göstərir. Bu məktəblər üçün də son illər yeni binalar inşa olunub və musiqinin tədrisi üçün hər cür şərait yaradılıb. Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin, 3 nömrəli Uşaq Musiqi Məktəbinin və başqa musiqi məktəblərinin şagirdləri muxtar respublikamızda keçirilən müsabiqələrdə, konsertlərdə fəal iştirak edirlər. Həmin məktəblərdə həm də şagirdlərdən ibarət müxtəlif ansamblar, orkestrlər və digər musiqi kollektivləri yaradılıb. İstedadlı şagirdlərə müəllimlər tərəfindən diqqət və qayğı göstərilir.

Tədbirin bədii hissəsində Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq musiqi məktəbləri şagirdlərinin ifasında musiqi nömrələri iştirakçılara təqdim olunub. Şagirdlər görkəmli Azərbaycan bəstəkarları Fikrət Əmirovun, Səid Rüstəmovun, Tofiq Quliyevin və başqalarının musiqi əsərlərini səsləndiriblər. Onların ifasında muğam, xalq mahnıları, rəqslər və saz havaları maraqla qarşılanıb.

Xarici ölkə bəstəkarlarının skripka, fortepiano üçün yazdığı musiqi əsərləri də səsləndirilən konsert nağaraçalanlar ansamblının "Azərbaycan ritmləri" ilə başa çatıb.

**Əli RZAYEV**

# Yeni tarixim yazılır bu gün

*Necə sevinməyim, qürurlanmayım?!*
*Axı, ən sevincli günümdür mənim.*
*Dünyaya səs salan doğma Vətənim,*
*Göylərə ucalan ünümdür mənim.*

*Keçilən yollarım hamar olmayıb,*
*Dərələr keçmişəm, dağ aşmışam mən.*
*Parlaq sabahları yaratmaq üçün,*
*Ulu öndərimə inanmışam mən.*





*O böyük insanın odu, nuruyla,*
*Ən qatı zülmətlər əriyib burda.*
*O müdrik insanın xoş əməlilə,*
*Qırılmış ümidlər göyərib burda.*



*İnsanın qəlbini vəcdə gətirən,*
*Hər gözəllik sanki girib yarışa.*
*Burda yaradılan minbir büsata,*
*Göydən ulduzlar da edir tamaşa.*

*Nağıllı qoynunda bir aləm yaşar,*
*Xoşbəxtlik bulağı çağlar bu yerdə.*
*Gəlsən görüşünə, abad kəndlərim,*
*Qarşında çələnglər bağlar bu yerdə.*



*Necə sevinməyim, qızılı xətlə,*
*Ən yeni tariximi yazılır bu gün.*
*Bu yerdə insanlar qəmi, kədəri,*
*Çıxarıb qəlbindən, atıb büsbütün.*

*Şəfəq saçır hər bir kəndim, qəsəbəm,*
*Əyninə al-əlvan donunu geyir.*
*Yeni tariximi yazan əllərə,*
*Xalqım da ürəkdən min alqış deyir.*

Rövşən HÜSEYNOV








ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Fatma Babayeva
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1490. Sifariş № 40